Ədəbiyyat QƏZETİ №12 11 aprel 2025-ci il 19

# Əbülfəz QULİYEV - 75

*Hörmətli Əbülfəz müəllim!*

*Sizi 75 illik yubileyiniz münasibətilə təbrik edirik.*

*Siz 1950-ci ildə Naxçıvan şəhərində anadan olmuş, 1966-cı ildə onillik orta məktəbi əla qiymətlərlə başa vuraraq elə həmin ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsinin dil-ədəbiyyat şöbəsinə qəbul olunmuş, 1971-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirmişsiniz. Təyinat üzrə Naxçıvan şəhərinə gəlmiş, bir il şəhər 1 saylı orta məktəbdə işləmiş, 1972-ci ildə yeni yaradılan Naxçıvan Elm Mərkəzinə kiçik elmi işçi vəzifəsinə qəbul olunmusunuz. 1971-ci ildən saat hesabı ilə işlədiyiniz Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutuna (indiki NDU) Azərbaycan dili və ədəbiyyat kafedrasına 1973-cü ildə müsabiqə yolu ilə Azərbaycan dili müəllimi seçilmisiniz. Burada işlədiyiniz müddətdə (1973-2003) dosent, professor elmi adı almış, müəllimlikdən kafedra müdiri vəzifəsinədək yüksəlmisiniz. 1979-cu ildə Azərbaycan MEA Nəsimi adına Dilçilik İnstitutunun müdafiə şurasında "Qədim türk Orxon-Yenisey yazılı abidələrində feilin təsriflənməyən formaları (Azərbaycan dili ilə müqayisədə)" mövzusunda namizədlik dissertasiyası müdafiə edib filologiya elmlər namizədi alimlik dərəcəsi almısınız. 1990-cı ildə dosent elmi adını almış, 1993-cü ildə işlədiyiniz universitetdə Azərbaycan dilçiliyi kafedrasının müdiri vəzifəsinə seçilmisiniz. Bu vəzifədə iki seçki müddəti işləmiş (2003-cü iladək), 2003-cü ildə yeni yaradılmış AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutuna direktor təyin olunmusunuz. Hazırda bu vəzifədə çalışmaqdasınız. 2003-cü ildə "Qədim türk onomastikasının leksik-semantik sistemi" mövzusunda doktorluq dissertasiyası müdafiə edib filologiya elmlər doktoru elmi dərəcəsi almısınız. 0,5 ştat işlədiyiniz universitetin elmi şurasında 2006-cı ilin mart ayında Azərbaycan dilçiliyi kafedrasına professor vəzifəsinə seçilmisiniz. 2007-ci il 26 aprel tarixində Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmisiniz.*

*Siz 50-yə yaxın kitab və monoqrafiyanın müəllifi, tərtibçisi və tərcüməçisisiniz. İndiyədək 300-dən artıq jurnal məqaləniz nəşr olunmuşdur. Sizin tədqiq etdiyiniz qədim türk yazılı abidələrinə aid "Əski türk yazılı abidələrinin müntəxabatı", "Orxon-Yenisey abidələrində feilin təsriflənməyən formaları", Qədim türk onomastikasının leksik-semantik sistemi (2 cild), "Qədim uyğur türklərinin onomastikası", "Əski türk onomastik sözlüyü" və s. kitab və monoqrafiyalarınız Azərbaycan milli humanitar elminin inkişafında rol oynamış, elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir. 5 kitabınız Türkiyədə, 1 kitabınız Almaniyada nəşr olunmuş, yüzə qədər məqaləniz xarici jurnallarda dərc edilmişdir. 50-dən artıq kitabın elmi redaktorusunuz. Rəhbərliyiniz altında 23 nəfər gənc tədqiqatçı dissertasiya müdafiə edib elmi dərəcə almışdır.*

*Siz İnstitut elmi şurasının, NDU nəzdindəki Dissertasiya şurasının sədri, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyinin "Mətnşünaslıq" ixtisası üzrə dissertasiya şurasının üzvü, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun təsis etdiyi "Axtarışlar" elmi jurnalının baş redaktoru, AMEANaxçıvan Bölməsinin orqanı olan "Elmi əsərlər" jurnalınının baş redaktor müavinisiniz. Bakıda nəşr olunan "Türkologiya", "Mahmud Kaşğarlı" və AMEA Humanitar bölməsinin "Elmi əsərlər", Türkiyədə nəşr olunan "Kültür evreni", "Bilimsel eksen", "Türk dili ve edebiyatı incelemeleri", Qazaxıstanda nəşr olunan "Türkoloji yığnak" dərgilərinin redaksiya heyətinin üzvüsünüz.*

*Hörmətli Əbülfəz müəllim!*

*Sizi bir daha 75 illik yubileyiniz münasibətilə təbrik edir, cansağlığı, yeni yaradıcılıq uğurları arzu edirik.*

**Azərbaycan Yazıçılar Birliyi**